Azərbaycan.-2023.-15 oktyabr.-№ 225.-S.17.



# Zəfərin memarı

**Həm 2003-cü il prezident seçkisi ərəfəsində, həm də seçkilərdən sonra müxtəlif siyasi bloklar yaradan və boykot çağırışı edənlər sonradan cənab İlham Əliyevin Prezident seçilməsini bayram kimi qeyd etdilər. Çünki onlar başa düşdülər ki, amalı, məqsədi ölkənin suverenliyinin, müstəqilliyinin möhkəmlənməsi, hər bir Azərbaycan vətəndaşının maddi rifahının yüksəlməsi olan cənab İlham Əliyev böyük işlər görür. Doğrudan da bu bir həqiqətdir ki, İlham Əliyev Prezident olaraq qarşıya qoyduğu məsələlərin həlli üçün lazımi tədbirlər görür. Bu, bütün sahələrdə özünü göstərir.**

Prezidentlik dövründə təkcə iqtisadi sahədə əldə edilən nailiyyətlərə baxanda görürük ki, ölkəmiz necə sürətli və davamlı inkişaf dövrü yaşayır. Bu istiqamətdə həyata keçirilən beynəlxalq miqyaslı layihələr mühüm əhəmiyyət kəsb edir, Azərbaycan xüsusilə dünya enerji sektorunda təhlükəsizliyə olan təhdidlərin qlobal səviyyədə qarşısının alınmasında mühüm aktora çevrilib. Bu layihələrin həyata keçirilməsi birmənalı olaraq, İlham Əliyevin adı və onun apardığı məqsədyönlü siyasətlə bağlıdır. Eyni zamanda dövlət başçısının yürütdüyü uğurlu siyasət nəticəsində nəqliyyat-logistika, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm sahəsi də mütərəqqi dövrünü yaşayır.

Hərbi sahədə mühüm islahatların həyata keçirilməsi, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi bizə Azərbaycan tarixinin ən şanlı Zəfərini qazandırdı. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti nəticəsində qələbə əldə edildi və işğalçı Ermənistan təslim olmağa məcbur oldu. Bu möhtəşəm Zəfərlə 200 ilə yaxın zaman kəsiyində baş vermiş torpaq itkilərinə son qoyuldu.

Bu, həm də separatçı meyilli dünya erməniçiliyinə ciddi zərbə oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azərbaycan onilliklərin ardından Qarabağ bölgəsində suverenliyini tam bərpa etdi.

Təbii ki, bütün bunlar dövlət başçımız İlham Əliyevin illərlə apardığı mükəmməl ordu quruculuğu siyasətinin parlaq nəticəsi idi. Müasir silahlar, texnoloji yeniliklərə malik ordunun, peşəkar hərbi qüvvələrin, milli kadr potensialının hesabına Azərbaycan Vətən müharibəsində qalib dövlətə çevrildi.

Bu illər ərzində cənab İlham Əliyevin apardığı milli təhlükəsizlik siyasətinə uyğun olaraq ən yüksək standartlara cavab verən, yüksək texnologiyalı silahlarla təchiz olunmuş hərbi qüvvələrimiz formalaşıb, vətənpərvər gənc nəsil yetişib.

Sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində məğlub olaraq ağ bayraq qaldıran erməni hərbi birləşmələri ərazilərimizi tərk etməyə başladı. Bundan sonra isə Qarabağda yaşayan ermənilərin reinteqrasiyası üçün lazımi tədbirlərin görülməsinə start verildi. Xüsusilə qeyd edək ki, Vətən müharibəsi başa çatandan dərhal sonra dövlətimiz Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işlərinə başladı, Böyük qayıdışa start verildi.

Bütün dövrlərdə olduğu kimi, 44 günlük müharibədən sonra da dövlətimizin əsas priroritetlərindən biri, həssas təbəqəyə, şəhid ailələrinə, qazilərimizə olan diqqət və qayğıdır. Cənab İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın birbaşa göstərişi və nəzarəti ilə bu kateqoriyadan olan insanlarımıza hər cür dəstək və kömək göstərilir.

Prezident İlham Əliyevin günün tələblərinə uyğun apardığı siyasətin nəticəsidir ki, Azərbaycan bu gün dünyada intellektual məhsulları ilə də tanınır. Cənab İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə 2013-cü ildə ilk peykimiz orbitə buraxılıb, Azərbaycan kosmik klubun üzvünə çevrilib və bu gün artıq üç peykimiz var.

Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biridir və ölkəmizdə etnik mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, hamının hüquq və azadlıqları təmin olunur, mənəvi dəyərləri qorunur. Dünyada yaşayan azərbaycanlıların bir-biri ilə və Azərbaycanla əlaqələrinin güclənməsinə, diaspor təşkilatlarının işinin gücləndirilməsinə yeni töhfələr verilir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti, Qoşulmama Hərəkatının sədri seçilməsi və sədrlik müddətinin daha bir il uzadılması, QH Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması, Avropa miqyaslı tədbirlərin, nüfuzlu beynəlxalq toplantıların, humanitar forumların ölkəmizdə keçirilməsi Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasətin bariz nəticəsidir.

Azərbaycan dilinin, ənənələrinin və mədəniyyətinin qorunub saxlanılması istiqamətində də cənab İlham Əliyev çox ciddi siyasət həyata keçirir.

Azərbaycan Prezidenti öz fəaliyyəti ilə türk dünyasının birliyinə də mühüm töhfələr verir. O da təsadüfi deyil ki, 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Prezident İlham Əliyevə "Türk Dünyasının Ali Ordeni" təqdim edilib.

Ulu Öndər Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin razılığı və iştirakı olmadan bu gün nəinki Cənubi Qafqazda, hətta beynəlxalq səviyyədə nəhəng layihələrin həyata keçirilməsi mümkün deyil. Azərbaycan xalqı öz Prezidenti ilə fəxr edir, dövlət başçısının yürütdüyü daxili və xarici siyasətin həyata keçirilməsində daim onu dəstəkləyir.

Cənab Prezident İlham Əliyevə bütün işlərində uğurlar diləyir, çətin və şərəfli fəaliyyətində cansağlığı, yeni nailiyyətlər arzulayırıq!

**Arzu NAĞIYEV,**
***Milli Məclisin deputatı***